UOT 338.48

*Vüsal Oruc oğlu ƏLİYEV*
*Azərbaycan Kooperasiya Universiteti, doktorant*

# TURİZMİN İNVESTİSİYA TƏMİNATININ TƏKMİLLƏŞDİRİLMƏSİ

*Xülasə*

**Tədqiqatın məqsədi.** Dünya turizminin tərkib hissəsi kimi Azərbaycanda turizmin investisiya təminatını təkmilləşdirməkdən ibarətdir.

**Tədqiqatın metodologiyası.** Məqalənin yazılmasında yeni istiqamətlərin əsaslandırılmasında müşahidə, müqayisə, təhlil, iqtisadi-statistik araşdırmalar və digər üsullardan istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti.** Məqalənin tətbiqi əhəmiyyəti ondan ibarətdir ki, işdə əldə olunmuş nəticələr və irəli sürülən təkliflər Azərbaycanda və onun regionlarında sosial təminatın gücləndirilməsi, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, ölkədə məşğulluğun artması ilə bağlı tədbirlərin həyata keçirilməsində istifadə edilə bilər.

**Tədqiqatın nəticələri.** Azərbaycanda turizmin inkişafına imkan verən rekreasiya ehtiyatlarını təsərrüfat dövriyyəsinə daxil edib onlardan səmərəli istifadə etmək üçün ilk növbədə regionlar üzrə turizmin xarici və sahibkar investisiyasına olan tələbat müəyyənləşdirilməlidir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi**. Daxili və Xarici investisiyaların turizmin inkişafında rolu qiymətləndirilmişdir.

Müasir dövrün iqtisadi inkişaf meyillərinin təhlili bu nəticəyə gəlməyə əsas verir ki, turizmin inkişafına müxtəlif ölkələrin malik olduqları təbii-ekoloji resursları, tarixi abidələri, möcüzələri, xalqların mədəniyyətləri, ünsiyyət əlaqələrinin səviyyəsi, sosial infrastrukturanın vəziyyəti və s. amillər təsir göstərir. Lakin bu amillərin hər birinin turizmin inkişafına təsiri səmərəli xərclənən maliyyə vəsaitlərinin həcmi ilə müəyyən olunur. Elə buna görə də turizmin inkişafına xərclənən maliyyə vəsaitlərinə görə fərqlənən ölkələr tədqiq etdiyimiz sahədə turizmin investisiya təminatının təkmilləşdirilməsinə prioritet vəzifə kimi yanaşırlar. Azərbaycanda turizmə xərclənən maliyyə vəsaitlərinin tədqiq və təhlil edilməsində, əvvəlcə dünyanın turizmlə məşğul olan qabaqcıl dövlətlərində turizmin inkişafına edilən xərclərin dinamikasını nəzərdən keçirtmək və beynəlxalq təcrübənin üstünlüklərindən faydalanmaq məqsədəuyğun hesab edilir.

***Açar sözlər: təbii resurslar, tarixi abidələr, möcüzələr, xalqların mədəniyyətləri, ünsiyyət əlaqələri, sosial infrastruktur.***

## *Giriş*

Dünya təsərrüfat sisteminin müxtəlifliyi və iqtisadiyyatın inkişafının son dövrləri əsasında qeyd etmək lazımdır ki, turizmin inkişafına qoyulan investisiyalar dünya səviyyəsində səmərəsinə görə yalnız neft sənayesindən və maşınqayırma sənayesindən geri qalır. Statistik təhlil göstərir ki, xərclərin ödəmə əmsalı neft sənayesində 5-ə bərabərdirsə bu göstərici turizmdə 1,8-ə çatır. Məhz bu faktı nəzərə alaraq əksər ölkələr turizmin iqtisadiyyatın aparıcı sahələrindən birinə çevrilməsi üçün onun inkişafına böyük həcmdə maliyyə vəsaitləri xərcləyirlər (cədvəl 1).

Bu ölkələrin sırasında ABŞ, Almaniya, Çin, Fransa və Böyük Britaniya aparıcı yer tuturlar.

Beynəlxalq turizmə edilən xərclərin səmərəsinin yüksək olması dünyanın digər yerlərində, xüsusilə, Afrika, Yaxın Şərq və Cənub-Şərqi Asiya dövlətlərində də bu sferaya ayrılan xərclərin artması üçün stimul rolunu oynamışdır [1].

**Dünyada beynəlxalq turizmə yönəldilən investisiyalar**

Beynəlxalq Turizm Təşkilatının məlumatına əsasən 2020-ci ildə Liviya, Əlcəzair, BƏƏ, Morokko, Xorvatiya və s. dünyada istirahət üçün ən yaxşı şəraiti olan ölkələrin siyahısında lider dövlətə çevrilə biləcəklər. Bu fakt əsas verir qeyd edək ki, ənənəvi turizm ölkələri ilə yanaşı zəif dövlətlər də milli iqtisadiyyatlarını inkişaf etdirmək, daha çox gəlir əldə etmək məqsədilə bu sahəyə böyük maraq göstərirlər və investisiya qoyuluşunu artırırlar [1].

*Cədvəl 1.*

***Turizmə çəkilən xərclər üzrə dünyanın 10 lider ölkəsinin vəziyyəti (2019-cu il mlrd.dollar).***

| Dövlətlər | Sıra nömrəsi | Tutduğu yer | Turizmə çəkilən xərclər |
|---|---|---|---|
| **ABŞ** | 1 | 2 | 182,366 |
| **Almaniya** | 2 | 3 | 99,865 |
| **Böyük Britaniya** | 3 | 4 | 71,4 |
| **Fransa** | 4 | 5 | 60,726 |
| **İtaliya** | 5 | 9 | 37,908 |
| **Çin** | 6 | 1 | 267,7 |
| **Avstraliya** | 7 | 6 | 41,43 |
| **Kanada** | 8 | 7 | 41,247 |
| **Rusiya** | 9 | 8 | 40,611 |
| **Cənubi Koreya** | 10 | 10 | 34,844 |

*Mənbə: World Data Bank 2020 (Dünya Bankının rəsmi statistikasi). [8].*

İnkişaf etməkdə olan ölkələrin turizmin inkişafına artan marağı Azərbaycan Respublikasında da özünü büruzə verir.

Qeyd etmək lazımdır ki, Azərbaycan turizminin dünya turist bazarında xüsusi çəkisi 1%-dən aşağıdır. Buna baxmayaraq son 5 ildə respublikada turizmin inkişafı üçün dövlət səviyyəsində proqramlar və digər təsirli tədbirlər həyata keçirilir. Turizm sferasının maddi-texniki bazasını, sosial infrastruktur sistemini dünya səviyyəsinə qaldırmaq üçün sahənin maliyyə təminatı getdikcə yaxşılaşdırılır.

Turizmin investisiya təminatının yaxşılaşdırılması dövlət vəsaiti, sahibkarların kapitalı, birgə turist müəssisələrinin yaradılması və respublikaya cəlb edilən xarici investisiyalardan istifadə əsasında həyata keçirilir (cədvəl 2).

*Cədvəl 2.*

***Azərbaycanda turizmin inkişafının əsas göstəriciləri***

| Göstəricilər | İllər | | | | |
|---|---|---|---|---|---|
| | **2015** | **2016** | **2017** | **2018** | **2019** |
| Səyahət agentlikləri və turoperator müəssisələrinin sayı | 243 | 272 | 339 | 374 | 432 |
| Turizm üçün xarekterik sahələrdə çalışan işçilərin sayı, nəfər | 49449 | 43477 | 46837 | 53222 | 58972 |
| Qəbul edilmiş və göndərilmiş turistlərin sayı, nəfər | 73527 | 63543 | 77587 | 83722 | 99507 |
| Turizm üçün xarekterik sahələrdə yaradılmış əlavə dəyər, milyon manat | 2437,3 | 2746,1 | 3151,2 | 3405,3 | 3704,9 |
| Turizn üçün xarekterik sahələr üzrə qoyulan investisiyaların həcmi milyon.manat | 1.063,9 | 363,0 | 267,3 | 229,7 | 133,7 |
| Turizmdə yaradılan əlavə dəyərin ölkənin Ümumi daxili məhsulunda (ÜDM) xüsusi çəkisi, faizlə | 4,5 | 4,5 | 4,5 | 4,3 | 4,5 |

*Mənbə: Azərbaycanda turizm, DSK-nın məlumatları əsasında tərtib edilmişdir Bakı-2020, s.13,14. [7].*

Cədvəldəki rəqəmlərdən göründüyü kimi, turizm Azərbaycan iqtisadiyyatında böyük gücə malikdir.

Lakin belə bir faktı etiraf etmək lazımdır ki, hazırda respublikamızda xarici investisiyaların sahələr arasında bölüşdürülməsində iqtisadiyyatın tarazlı inkişaf prinsipləri tələb olunan səviyyədə nəzərə alınmır. Nəticədə Azərbaycanda istifadə olunan xarici investisiyaların strukturunda uyğunsuzluq meylləri özünü büruzə verir.

İstifadə olunan investisiyaların müxtəlif sahələrdə, o cümlədən turizmdə istifadəsini təhlil etməzdən əvvəl, Azərbaycan iqtisadiyyatında bütün mənbələr üzrə investisiyaların dünamikasını nəzərdən keçirməyi məqsədəuyğun hesab edirik.

Qeyd etmək lazımdır ki, Azərbaycan iqtisadiyyatına 2006-cı ilə nisbətən 2019-ci ildə qoyulan ümumi investisiyaların həcmi təxminən 2 dəfə çoxalmışdır. Diqqəti cəlb edən cəhət odur ki, ümumi investisiyaların yarıdan çoxunu xarici investisiyalar təşkil edir (cədvəl 3.).

***Cədvəl 3.***

***Azərbaycan iqtisadiyyatına bütün mənbələr üzrə yönəldilən investisiyalar (mln. manat).***

| Göstəricilər | 2005 | 2010 | 2015 | 2019 |
|---|---|---|---|---|
| Bütün mənbələr üzrə investisiya qoyuluşu (xarici investisiyalar daxil olmaqla) | 6733,4 | 14118,9 | 20057,4 | 24986,6 |
| Daxili investisiya | 2104,9 | 10199,0 | 9058,5 | 12867,1 |
| Xarici investisiyalar | 4628,5 | 6619,7 | 10998,9 | 12119,5 |

*Mənbə: Azərbaycanda turizm, DSK-nın məlumatları əsasında tərtib edilmişdir Bakı-2020, s.15,16. [6,7].*

Materialların təhlili göstərir ki, 2019-cu ildə Azərbaycan iqtisadiyyatına 12,1 mlrd. manatlıq xarici investisiya qoyulmuşdur.

Beynəlxalq təşkilatların və xarici ölkələrin vəsaitləri hesabına respublikamıza yönəlmiş ümumi vəsaitin 82,3%-i (10,043 mlrd. manat) Birləşmiş Krallıq, Türkiyə, Malayziya, İsveçrə, Rusiya, İran, Yaponiya, ABŞ, Çexiya sərmayəçilərinin payına düşür [8].

Xarici investorlar tərəfindən Azərbaycan iqtisadiyyatına ümumi investisiyanın 83%-ə qədəri respublika iqisadiyyatının aparıcı sahəsi olan neftçıxartma sənayesinə qoyulmuşdur.

Xarici investisiyaların əksər hissəsinin neftçıxartma sənayesinə yönəldilməsinə baxmayaraq onun ümumi daxili məhsulda və ümumi gəlirlərdə payı 43,5%-dən çox deyildir. Xarici investisiyalardan istifadəyə bu cür yanaşmaq monosahəvi iqtisadiyyatın inkişafı ilə nəticələnir.

**Azərbaycanda turizmin inkişafına yönəldilən daxili və xarici investisiyalar**

Beynəlxalq ekspertlərin məlumatlarına əsasən Azərbaycanda “Əsrin Kontraktı” əsasında neft hasilatının “pik dövrü” 2012-ci ilə təsadüf edir. Respublika iqtisadiyyatında xarici investisiyalardan istifadəyə elə yanaşmaq lazımdır ki, prioritet sahədən başqa bir neçə aparıcı, 1-ci və 2-ci dərəcəli sahələrin dinamik inkişafı da təmin olunsun.

Xarici investisiyaların sahə qoyuluşunun təhlili göstərir ki, iqtisadi səmərəsinə görə fərqlənən aqrar iqtisadiyyatın və turizmin xüsusi çəkisi çox azdır. İqtisadiyyatın sahələri arasında xarici investisiyalardan istifadə sahəsində mövcud vəziyyət sahələr arasında tarazlı inkişafın pozulmasına, aparıcı sahələrlə 1 və 2-ci dərəcli sahələr arasında arzuolunmaz boşluğun əmələ gəlməsinə səbəb ola bilər. Buna görə də respublikamızda bu sahədə elə çevik texnoloji siyasət yeridilməlidir ki, o, istehlak dövriyyəsinə yeni resursların cəlb edilməsinə imkan versin. Digər tərəfdən investisiyaların bölüşdürülməsi və iqtisadi dövriyyədə istifadə müddətləri bir-birilə elə razılaşdırılmalıdır ki, cəlb olunmuş vəsait gözlənilən səmərəni versin.

Turizmin xarici investisiya təminatına regionların inkişaf səviyyəsini, onlarda infrastrukturun vəziyyətini nəzərə almaqla yanaşmaq lazımdır. Əksər inkişaf etmiş ölkələrdə bu problemin həllində xarici və birgə sahibkarlığın imkanlarından da geniş istifadə olunur ki, bu da turist mühitinin yaxşılaşdırılması amili kimi çıxış edir.

Hesablamalar göstərir ki, gəlmə turizmin inkişafına yönəldilən daxili və xarici investisiyaların hesabına turizmi respublikamızın aparıcı, həm də gəlirlə işləyən sahələrdən birinə çevirmək üçün

böyük imkanlar vardır. ÜTT-nin məlumatlarına əsasən bir turistin səyahət, yaxud istirahət etməsi üçün lazım olan orta maliyyə xərcləri əsasında ildə 4,5 mln turist qəbul edən Azərbaycan Respublikasında 7,5 mlrd.manat ümumi gəlir əldə etmək mümkündür.

Hesab edirik ki, Azərbaycanın malik olduğu rekreasiya ehtiyatları turizmin formalarından səmərəli istifadə etməklə dövlət büdcəsinin gəlirlərinin formalaşmasının mühüm mənbəyinə çevrilə bilər. Bunun üçün aqroturizmin investisya təminatı və kənd turizminin hüquqi bazası əsaslı surətdə yaxşılaşdırılmalıdır.

Kanada, Almaniya, Avstraliya və s. dövlətlərin təcrübəsi göstərir ki, hər il bu ölkələr aqroturizmin inkişafı hesabına milyonlarla gəlir əldə edirlər [8].

Azərbaycan Respublikasında Şəki-Zaqatala, Aran zonasında, Gəncə-Qazax regionlarında aqroturizmin, Abşeron, Quba-Xaçmaz, Lənkəran-Astara zonalarında isə kənd turizminin inkişafı üçün böyük ehtiyat mənbələri vardır.

Əsas vəzifə ondan ibarətdir ki, bu ehtiyatları təsərrüfatçılıq dövriyyəsinə daxil etməklə onlardan səmərəli istifadə olunsun. Qeyd olunan problemin həlli yalnız dövlət vəsaiti hesabına deyil, digər maliyyə mənbələrindən istifadəyə əsaslanmalıdır.

Qeyd etdiyimiz turizm formalarının investisiya təminatını yaxşılaşdırmaq üçün sahibkarlığın müxtəlif formalarından istifadə edilməsi iqtisadi cəhətdən məqsədəuyğundur. Lakin təəssüflə qeyd etmək lazımdır ki, respublika iqtisadiyyatının bütün sahələrində, o cümlədən turizmdə xarici və birgə müəssisələrin fəaliyyəti istənilən səviyyədə olmadığı üçün sahibkarlıq inestisiyaları hesabına turizmin müxtəlif formalarından istifadə işində müəyyən çətinliklər vardır.

Fikrimizcə, respublikamızda xarici investorların dünya standartlarına uyğun fəaliyyət göstərməsinə şərait yaradaraq biznes mühiti təşkil etməklə turizmdə dövlət dəstəyi ilə özəl investisiyaların payının artmasına şərait yaratmaq lazımdır. Bu baxımdan respublikamıza xarici investisiya gətirən özəl təşəbbüskarlığın dəstəklənməsi istiqamətində biznes-investisiya mühiti sahəsində qanunvericiliyin təkmilləşdirilməsinə ehtiyac vardır.

Statistik rəqəmlərdən aydın olur ki, Azərbaycanda iqtisadiyyatın sahələrinə, o cümlədən turizmə xarici investisiya qoyuluşu arzuolunan səviyyədən çox aşağıdır.

Turizmdə xarici və birgə sahibkarlığın səmərəli olmasına baxmayaraq yalnız mehmanxanaların və restoranların tikintisi sahəsində xarici və birgə müəssisələrin imkanlarından istifadə olunur (cədvəl 4.).

***Cədvəl 4.***

***Azərbaycanda xarici və birgə müəssisələrin fəaliyyəti***

| Sahələr | Mövcud müəssisələrin sayı | Onlarda işləyənlər | Orta aylıq əməkhaqqı. manat | Məhsulun həcmi min. manat |
|---|---|---|---|---|
| Cəmi | 1163 | 62203 | 950,0 | 27215404,0 |
| Sənaye | 228 | 27157 | 902,4 | 14024250,0 |
| Tikinti | 205 | 8287 | 819,9 | 687975,0 |
| Kənd təsərrüfatı | 5 | 1452 | 136,4 | 930,8 |
| Ticarət | 384 | 5988 | 281,3 | 96402,0 |
| Mehmanxana və restoranlar | 39 | 2430 | 394,8 | 60240,1 |
| Nəqliyyat, anbar təsərrüfatı və rabitə | 88 | 5713 | 675,8 | 1961307,1 |
| Daşınmaz əmlakla bağlı əməliyyatlar, kommersiya fəaliyyəti | 260 | 8142 | 2459,8 | 462017,0 |
| Təhsil | 27 | 1246 | 165,4 | 6415,9 |
| Səhiyyə və sosial xidmətlər | 12 | 613 | 282,8 | 3834,1 |
| Digər kommunal, sosial və fərdi xidmətlər | 15 | 475 | 199,2 | 12030,8 |

*Mənbə: Azərbaycanda turizm, DSK-nın məlumatları əsasında tərtib edilmişdir Bakı-2020, s. 19,20. [6,7].*

Qeyd etmək lazımdır ki, Azərbaycanda mövcud 1163 xarici və birgə müəssisələrin hesabına 2017-ci ildə 3,0 mln.dollara yaxın investisiya qoyulmuşdur. Bu investisiyaların da 90%-i xidmət və marketinq fəaliyyətinə yönəlmişdir. Turizm fəaliyyətində xarici və birgə müəssisələr az olduğuna görə bu sferaya cuzi xarici investisiya cəlb olunmuşdur.

Azərbaycanda turizm fəaliyyəti respublikada yaradılan kiçik müəssisələr (şirkətlər), Turizm Nazirliyi və dini qurumlar tərəfindən həyata keçirilir. Bu qurumların investisiya qoyuluşu baxımından imkanları o qədər zəifdir ki, onlar gəlmə və digər turizm formalarının inkişafını təmin etməyə imkan verən maddi-texniki baza, lazımi infrastruktura şəbəkəsini yaratmağa imkan vermir. Yerli təyinatlı kiçik müəssisələr və şirkətlər əsasən getmə turizmə xidmət edir, turist ptyovkalarını reallaşdırır və qrup halında səyahət-gəzintiləri həyata keçirirlər.

Lakin unutmaq lazım deyil ki, turizm iqtisadi cəhətdən gəlirli sahə olmaqdan başqa işsizliyin aradan qaldırılmasına, insanların sosial şəraitinin yaxşılaşdırılmasına kömək edir. Eyni zamanda turizm struktur yaradan fəaliyyət sahəsidir.

Malayziya, Sinqapur və digər dövlətlərin təcrübəsi göstərir ki, turizmin inkişafı bu ölkələrdə turizm hədiyyələri istehsalı sənaye sahəsinin, yeni xidmət sahələrinin yaradılmasına səbəb olmuşdur. Əksər turizm ölkələrində qeyd etdiyimiz məşğuliyyət sahələri dövlət büdcəsinin, yaxud ayrı-ayrı turizm şirkətlərinin, ailələrin gəlirlərinin formalaşması mənbəyinə çevrilmişdir. Avstriya kimi turist ölkəsinə 2018-ci ildə 22,4 mln. nəfərdən çox turist gəlmişdir. Turistlərin hər biri bir dollarlıq turist hədiyyələri istehsalı sənaye sahəsinin hazırlandığı hədiyyəni alarsa əldə olunan gəlir 22,4 mln.dollar təşkil edəcəkdir.

Qazanılan mənfəət dövlətin, sahənin, yaxud şirkətin büdcəsinə daxil olacaqdır. Bu da sonrakı illərdə dövlətin turizm sferasına daha çox investisiya yönəlməsinə, onun maddi-texniki bazasının komfort vəziyyətində saxlanmasına imkan verəcəkdir.

Ölkə iqtisadiyyatının, o cümlədən turizmin inkişafında xarici investisiyanın artan rolunu nəzərə alaraq onların bölüşdürülməsinə metodoloji yanaşmanın təkmilləşdirilməsinə ehtiyac vardır [3].

Fikrimizcə, xarici investisiyaların bölüşdürülməsində bu və ya digər sahənin aparıcı sahə olması faktı ölkəyə daxil olan kapitalın 80-85%-nin bir sahəyə yönəldilməsi üçün məqbul hesab edilməməlidir. Hesab edirik ki, respublikada istehsal olunan ümumi daxili məhsulda, gəlirlərdə sahənin xüsusi çəkisi nəzərə alınmaqla xarici investisiyaya olan tələbat ödənilməlidir [4].

Hazırda respublikanın ÜDM-də kənd təsərrüfatının xüsusi çəkisi təxminən 9,0% təşkil edir. Lakin kənd təsərrüfatına yönəldilən xarici investisiyanın ölkə üzrə ÜDM-də və ümumi xarici investisiyalarda xüsusi çəkisi 1%-dən çox deyildir. Bu cür yanaşma kənd təsərrüfatında həyata keçirilən islahatların dərinləşməsinə, gözlənilən səmərənin əldə edilməsinə imkan vermir.

Eyni vəziyyət turizm sahəsində özünü büruzə verir. Respublikamızın turist bazarında reallaşdırılan məhsullar və göstərilən xidmətlərin dəyərinin ölkə üzrə ÜDM-də payı təxminən 4%-ə çatır. Lakin xarici investisiyaların və sahələr arasında bölüşdürülməsində bu ehtiyacın heç 1%-i nəzərə alınmır. Şübhəsiz ki, bu hal turizmin lazım olan səviyyədə inkişafına mənfi təsir göstərir.

## *Nəticə*

Biz hesab edirik ki, Azərbaycanda turizmin inkişafına imkan verən rekreasiya ehtiyatlarını təsərrüfat dövriyyəsinə daxil edib onlardan səmərəli istifadə etmək üçün ilk növbədə regionlar üzrə turizmin xarici və sahibkar investisiyasına olan tələbat müəyyənləşdirilməlidir.

Mülkiyyət mənsubiyyətindən asılı olmayaraq turizmə qoyulacaq investisiyaların nə qədərinin dövlət vəsaiti və sahibkarların öz vəsaiti, yaxud götürəcəyi kreditin hesabına ödənilməsinin müəyyənləşdirilməsi respublikamızda xarici qonağı cəlb edən son dərəcə komfort turizm otellərinin və digər infrastrukturların yaranmasına imkan verəcəkdir.

Qeyd edək ki, hazırda respublikamıza gələn xarici turistlər üçün nəzərdə tutulan Gəncədəki “Ramada”, Naxçıvandakı “Təbriz”, “Qrant”, Qəbələdə, Lənkəranda və s. şəhərlərdə fəaliyyət göstərən beşulduzlu otellər belə Avropa standartlarından geri qalırlar. Belə ki, otaqlarda internet xidmətinin yoxluğu, tibbi xidmətin aşağı səviyyədə olması, nömrələrdə havalanmanın zəifliyi, otaq-

larda döşəmə keyfiyyətində sintetik materiallardan (linolium) istifadə edilməsi turistdə xoşa gəlməyən təəssürat yaradır. Digər hallarda respublikamızın gözəl istirahət yerləri olan Hacıkənddə, Qubada, Xaçmazda və s. regionlarda daxili və gəlmə turistin istirahəti üçün ağac materiallarından tikilmiş xırda koteclər (Göygöl rayonunda Tuğanada, Lerikdə “Relaks”da) infrastruktur təminatına görə xeyli geridə qalırlar və onların sahibkar, birgə, yaxud xarici şirkətlərin investisiyalarına ehtiyacı böyükdür.

Respublikamızda kredit və vergi sistemindəki qüsurlar isə turizmlə məşğul olan mülkiyyət sahiblərinin müflisləşmə riskindən çəkinmələri, Avropa ölkələri səviyyəsində turistlər üçün komfort tələblərə cavab verən infrastrukturanın yaradılmasına əngəl törədir. Fikrimizcə, xarici investisiyasız inkişafı mümkün olmayan turizm rekreasiya ehtiyatlarını iqtisadi dövriyyəyə cəlb etmək üçün onların beynəlxalq investisiya bazarlarına çıxarılması məqsədəuyğundur. İşin daha səmərəli olması üçün respublikada mövcud və yaradılacaq turizm yerlərinin dövlət tərəfindən reklamı həyata keçirilməlidir.

Bu cür yanaşma turizmə xarici investisiya cəlb etmək sahəsində səmərəli seçim etməyə imkan verəcəkdir. Beləliklə də turizmin inkişafı üçün qoyulan xarici investisiyanın veriminin artması Azərbaycanda qeyri-neft sektorunda aparıcı sahənin əmələ gəlməsi prosesini sürətləndirəcək ki, bu da respublika iqtisadiyyatının dayanıqlı inkişafına kömək edəcəkdir.

## ƏDƏBİYYAT


1. http://www.gdrc.org/uem/eco-tour/charter.html Dayanıqlı turizmin inkişafı üzrə Lanzarote (Kanar adaları, İspaniya) Ümumdünya Konfransı Bəyannaməsi, 27-28 aprel 1995-ci il. Beynəlxalq Qlobal İnkişaf Araşdırmalar Mərkəzinin saytı.
2. Əzizov A.Ə. Beynəlxalq iqtisadiyyat. Bakı, 2018, s.335.
3. Qafarov N.C. Turizmin iqtisadiyyatı, Bakı, 2012, s.416.
4. Aslanzadə İ.A. İnvestisiya layihələrinin təşkili və idarə olunması. Bakı, “Çaşıoğlu”, 2000, s. 124.
5. “Turizm haqqında” Azərbaycan Respublikasının Qanunu. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev. Bakı, 4 iyun 1999. №674-1Q.
6. ARDSK. Azərbaycanın statistik göstəriciləri. Bakı, 2010, 2012, 2015, 2016, 2017, 2018, 2019, 2020.
7. Azərbaycanda turizm, DSK-nın məcmuəsi. Bakı, 2020.
8. World Data Bank 2020 (Dünya Bankının rəsmi statistikasi).


***Вюсал Орудж оглы Алиев***
***Азербайджанский Университет Кооперации, докторант***

### Улучшение инвестиционного обеспечения туризма

***Резюме***

**Цель исследования**. В рамках мирового туризма Азербайджан направлен на улучшение инвестиционного обеспечения туризма.

**При написании статьи**. При написании статьи было использовано материалы в новом направлении, сравнительных, аналитических, экономико-статистических исследований.

**Значение исследования**. Значение применения статьи состоит в том, что полученные результаты и выдвинутые предложения могут быть использованы при реализации мер по усилению социальной защиты в Азербайджане и его регионах, повышению уровня жизни, увеличению занятости в стране.

**Результаты исследования**. Для включения в экономический оборот рекреационных ресурсов, позволяющих развивать туризм в Азербайджане и эффективно их использовать, в первую очередь необходимо определить потребность в иностранных и предпринимательских инвестициях в туризм в регионах.

**Оригинальность и научная новизна исследования**. Роль внутренних и иностранных инвестиций в развитии туризма была оценина.

Анализ современных тенденций экономического развития позволяет сделать вывод о том, что на развитие туризма влияют природные и экологические ресурсов разных стран, исторические памятники, культура народов, уровень общения, состояние социальной инфраструктуры и др. факторы. Однако влияние каждого из этих факторов на развитие туризма определяется объемом эффективно расходуемых финансовых ресурсов. Вот почему страны, различающиеся по сумме средств, расходуемых на развитие туризма, отдают приоритет улучшению инвестиционного обеспечения туризма в изучаемой нами области. При исследовании и анализе финансовых ресурсов, затрачиваемых на туризм в Азербайджане, считается целесообразным в первую очередь рассмотреть динамику расходов на развитие туризма в ведущих странах мира, занимающихся туризмом, и воспользоваться международным опытом.

***Ключевые слова: природные ресурсы, исторические памятники, чудеса, культура народов, общение, социальная инфраструктура.***

***Vusal Oruj oglu Aliyev***
***Ph.D. of Azerbaijan Cooperation University***

## Improving the supply investment of tourism

***Summary***

**The purpose of the research.** It consists of improving the investment provision of tourism in Azerbaijan as part of world tourism

**Methodology of the research.** Observation, comparison, analysis, economic-statistical research and other methods were used in substantiating new directions in writing the article.

**The importance of the application of the article.** The importance of the application of the article is that the results obtained and the proposals put forward can be used in the implementation of measures to strengthen social security in Azerbaijan and its regions, improve living standards, increase employment in the country.

**The results of the research**. In order to include recreational resources that allow the development of tourism in Azerbaijan to the economic cycle and use them effectively, first of all, the need for foreign and entrepreneurial investment in tourism in the regions must be identified.

**Originality and scientific innovation of the research.** The role of domestic and foreign investment in the development of tourism was evaluated.

Analysis of modern economic development trends leads to the conclusion that on the natural and ecological resources of different countries, historical monuments, wonders, cultures of peoples, the level of communication, the state of social infrastructure, etc. factors affect the development of tourism. However, the impact of each of these factors on the development of tourism is determined by the amount of financial resources spent efficiently. That is why countries that differ for the amount of money spent on tourism development prioritize the improvement of tourism investment in the area we study. In studying and analyzing the financial resources spent on tourism in Azerbaijan, it is expedient to first consider the dynamics of expenditures on tourism development in the leading countries of the world engaged in tourism and take advantage of international experience.

***Key words: natural resources, historical monuments, wonders, cultures of peoples, communication Meana, social infrastructure.***